Qəfərov Midhəd Seyidəhməd oğlu,
hüquq üzrə elmlər doktoru, professor, BDU-nun Hüquq fakültəsinin "Cinayət prosesi" kafedrası
Ünvan: Bakı, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: msqafarov66@gmail.com
https://orcid.org/0009-0007-4963-4054

Eyvazov Hikmət Qismət oğlu,
hüquq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikası
DTX-nin Heydər Əliyev adına Akademiyası
Ünvan: Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 6
E-mail: ehg69@mail.ru
https://orcid.org/0000-0003-2118-3478

Qəfərli Mirtərlan Midhəd oğlu,
Bakı Ağır Cinayətlər Məhkəməsi, hakim köməkçisi, magistr
Ünvan: Bakı, Səməd Vurğun küçəsi – 46.
E-mail: mirterlan.qeferli@gmail.com

UOT 343.1
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.1148

MÜASİR CİNAYƏT-PROSESSUAL HÜQUQUN İNKIŞAFININ YENİ MƏRHƏLƏSİ

Açar sözlər: *cinayət prosesi, cinayət-prosessual hüquq, preventiv təminatlar, proaktiv tənzimləmə, reaktiv tənzimləmə, süni intellekt, rəqəmsal cinayət prosesi, elektron sübut, məhkəmə nəzarəti, insan hüquqları, prosessual risk.*

Ключевые слова: *уголовное судопроизводство, уголовно-процессуальное право, превентивные гарантии, проактивное регулирование, реактивное регулирование, искусственный интеллект, цифровое уголовное судопроизводство, электронные доказательства, судебный контроль, права человека, процессуальный риск.*

Keywords: *criminal proceedings, criminal procedural law, preventive guarantees, proactive regulation, reactive regulation, artificial intelligence, digital criminal proceedings, electronic evidence, judicial control, human rights, procedural risk.*

Giriş

Müasir cinayət-prosessual hüququn inkişafının yeni mərhələsi, Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının qorunması prinsipləri ilə rəqəmsal transformasiya və süni intellekt texnologiyalarının cinayət mühakimə icraatına inteqrasiyasının zərurətindən irəli gəlir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən dövlətin ali məqsədi insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsidir. Bu maddə cinayət-prosessual hüququn insan hüquq-

larına yönəlmiş inkişafının konstitusion əsasını təşkil edir [1, mad.12].

Eyni zamanda, Konstitusiyanın 24-cü maddəsi şəxsin hüquq subyektliyini və ləyaqətinin toxunulmazlığını təsbit edərək, rəqəmsal mühitdə də bu prinsiplərin qorunmasını tələb edir. Cinayət mühakimə icraatında şəxsin hüquq subyekti kimi tanınması və onun hüquqlarının prioritetliyi bu maddə ilə əlaqələndirilə bilər [1, mad.24].

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (bundan sonra – AR CPM) cinayət prosesinin əsas prinsiplərini müəyyən etsə də, kibercinayətlərin artması, fərdi məlumatların qorunmasına yönəldilən təhdidlər və süni intellekt alətlərinin hüquq-mühafizə orqanları tərəfindən istifadəsi bu normativ bazanın müasir reallıqlar kontekstində yenidən qiymətləndirilməsini zəruri edir. AR CPM-in 9-cu maddəsi cinayət mühakimə icraatının əsas prinsiplərini təsbit edir. Müasir cinayət-prosessual hüququn inkişafı bu prinsiplərin insan hüquqları, rəqəmsallaşma və preventiv təminatlar şəraitində yenidən şərh olunmasını tələb edir [2, mad.9].

AR CPM-in 16-cı maddəsi şəxsi həyatın toxunulmazlığı hüququnun təmin edilməsini nəzərdə tutur. Elektron sübutlar, biometrik məlumatlar, süni intellekt əsaslı analiz və rəqəmsal müşahidə mexanizmləri baxımından xüsusi əhəmiyyət daşıyır [2, mad.16].

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Süni intellekt Strategiyası" kibercinayətlərin qarşısının alınması və onlara qarşı əks-tədbirlərin həyata keçirilməsində süni intellekt alətlərinin genişləndirilməsini nəzərdə tutur [3]. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası" kibercinayətkarlığa qarşı mübarizə, kiberkriminalistika və cinayət işlərinin istintaqının səmərəli təşkili sahəsində fəaliyyətin gücləndirilməsini prioritet edir [4]. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 608 nömrəli Fərmanı rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində dövlət siyasətinin vahid şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə Rəqəmsal İnkişaf Şurasının yaradılmasını nəzərdə tutur [5]. Bu baxımdan, cinayət-prosessual hüququn müasir inkişaf mərhələsi insan hüquqlarının qorunması, rəqəmsal suverenlik, kibertəhlükəsizlik və profilaktik prosessual təminatların harmonik birləşməsi əsasında formalaşmalıdır.

Yuxarıda istinad etdiyimiz və müasir cinayət prosesinin çağırışları tədqiqatın aktuallığını şərtləndirən və bu istiqamətdə elmi tədqiqatları zəruri edən amillərdir. Məlumdur ki, cinayət-prosessual hüquq dövlətin cinayət təqibi və ədalət mühakiməsi səlahiyyətlərini həyata keçirməsi ilə şəxsin fundamental hüquq və azadlıqlarının qorunması arasında hüquqi tarazlığı təmin edən mürəkkəb normativ sistemdir. Buna görə cinayət-prosessual qanunvericiliyin inkişafını yalnız cinayətkarlığa qarşı mübarizənin texniki vasitələrinin təkmilləşdirilməsi kimi qiymətləndirmək metodoloji baxımdan kifayət hesab edilə bilməz.

Müasir mərhələdə cinayət prosesi iki paralel transformasiya ilə qarşılaşır. Bir tərəfdən, insan hüquqlarının effektiv təmin edilməsinə dair beynəlxalq standartlar cinayət prosesində prosessual müdaxilələrin qanunilik, zərurilik, proporsionallıq, məhkəmə nəzarəti və effektiv müdafiə vasitələri ilə məhdudlaşdırılmasını tələb edir. Digər tərəfdən, rəqəmsallaşma böyük həcmli məlumatların real vaxt rejimində emalına, prosessual fəaliyyətin avtomatlaşdırılmasına və müəyyən risklərin əvvəlcədən müəyyənləşdirilməsinə imkan yaradır və bu imkanlardan ədalət mühakiməsinin vəzifələrinin yerinə yetirilməsi baxımından istifadə edilməsi

potensialının tədqiq edilməsi və tətbiq mexanizminin qurulması zərurəti yaranır.

Beləliklə, müasir cinayət prosesinin qarşısında yalnız "pozuntu baş verdikdən sonra necə reaksiya verməli?" sualı dayanmır və hətta heç dayanmamalıdır. Bununla yanaşı, "prosessual pozuntunun baş vermə ehtimalını əvvəlcədən necə müəyyən etmək və onun qarşısını qanuni vasitələrlə necə almaq olar?" sualı daha aktual hesab edilməlidir.

Məhz bu məqam cinayət-prosessual hüququn inkişafında yeni doktrinal yanaşmanın – preventiv prosessual təminatlar konsepsiyasının formalaşdırılmasını zəruri edir.

Lakin burada prinsipial metodoloji sərhəd qoyulmalıdır: preventiv prosessual yanaşma "cinayət törədə biləcək şəxslərin" qabaqcadan müəyyən edilməsi və onların hüquqlarının yalnız alqoritmik proqnoza əsasən məhdudlaşdırılması kimi başa düşülməməlidir. Belə yanaşma təqsirsizlik prezumpsiyası, qanunilik, şəxsi toxunulmazlıq və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri və s. ilə toqquşa bilər.

Preventivlik ilk növbədə prosessual fəaliyyətin özünün hüquqa uyğunluğunun əvvəlcədən təmin edilməsinə yönəlməlidir.

Klassik cinayət-prosessual modeldə hüquqi tənzimləmənin mühüm hissəsi artıq baş vermiş hüquq pozuntusuna reaksiya üzərində qurulurdu. Məsələn, prosessual müddət pozulur, bundan sonra onun hüquqi nəticələri müəyyən edilir; qanunsuz sübut əldə edilir, bundan sonra onun yolverilməzliyi məsələsi həll edilir; qanunsuz həbs tətbiq edilir, bundan sonra məhkəmə nəzarəti vasitəsilə həmin müdaxiləyə hüquqi qiymət verilir. Bu modelin əhəmiyyəti şübhəsizdir. Çünki hüquqi dövlət pozuntu baş verdikdən sonra effektiv hüquqi müdafiə mexanizmlərinə malik olmalıdır. Lakin yalnız sonrakı reaksiyaya əsaslanan sistemin fundamental zəifliyi ondan ibarətdir ki, bəzi prosessual pozuntular sonradan tam bərpa edilə bilmir. Məsələn, şəxs qanunsuz olaraq uzun müddət azadlıqdan məhrum edilibsə, müdafiəçinin prosessual fəaliyyətə vaxtında buraxılmaması müdafiə imkanlarını faktiki zəiflədibsə, elektron sübutun ilkin məlumatları dəyişdirilibsə, şahidin təhlükəsizliyi ilə bağlı real risk əvvəlcədən müəyyən edilməyibsə sonrakı hüquqi reaksiya pozuntunun bütün nəticələrini əvvəlki vəziyyətə qaytara bilməyə bilər və təcrübə də bunu təsdiq edir. Bunun üzərinə cinayət prosesində vəzifəli şəxslərin süi-istifadəsi, öz vəzifələrinə məsuliyyətsiz və vicdansızcasına yanaşması halları və s. də gəldikdə demokratik hüquqi dövlətin cinayət-prosessual qanunvericiliyinin tələbləri və istintaq və məhkəmə təcrübəsinin reallıqları arasında paradoksal vəziyyət müşahidə olunur. Deməli, müasir prosessual təminat sisteminin effektivliyi yalnız *post factum* müdafiə, yəni sonrakı hüquqi reaksiya ilə ölçülməməlidir. Məhz bu, preventiv prosessual təminatların nəzəri əsasını təşkil edir. Günün müasir tələbləri baxımından yeni hüquqi yanaşmanın formalaşdırılmasına ehtiyac vardır. Bu mənada hesab edirik ki, preventiv hüquqi tənzimləmə konsepsiyasının cinayət prosesinin səmərəliliyinə mühüm töhfə verəcəyi şübhəsizdir.

Reaktiv, proaktiv və preventiv hüquqi tənzimləmə cinayət prosesinin inkişafında aktual məsələ kimi diqqətdə saxlanılmalıdır. Bu istiqamətdə hesab edirik ki, ilk olaraq bu anlayışları fərqləndirilmək lazımdır, çünki "reaktivlikdən proaktivliyə keçid" ifadəsi özlüyündə kifayət qədər aydın hüquqi məzmun yaratmır. Belə olan halda bu anlayışların dəqiq müəyyən edilməməsi elmi kateqoriyaların dəqiq sərhədlərinin müəyyən edilməsində çətinlik yaradacaq, müəyyənlik prinsipinin pozulmasına səbəb olacaq və elmdə yeni bir problem yaradacaqdır. Reaktiv hüquqi tənzimləmə artıq baş vermiş hadisəyə, hüquq pozuntusuna və ya təhlükəyə hüquqi cavab verilməsidir. Məsələn, müddət artıq pozulmuşdur, sistem pozuntunu müəyyən edir, məsuliyyət və ya digər hüquqi nəticə yaranır. Bu model zəruri olaraq qalır,

çünki hüquq pozuntusunun baş verməsi ehtimalı ilə onun faktiki baş verməsi arasında mühüm fərq vardır. Proaktiv hüquqi tənzimləmə hüquq pozuntusu baş verməzdən əvvəl onun yaranmasına səbəb ola biləcək şəraitin və risklərin müəyyənləşdirilməsinə və hüquqi vasitələrlə idarə olunmasına yönəlir. Məsələn, prosessual müddətin bitməsinə neçə saat qalıb, elektron sistem müddətin başa çatacağını müəyyən edir, məsul vəzifəli şəxsə xəbərdarlıq edilir, hüquqi hərəkətin vaxtında həyata keçirilməsi təmin olunur. Bu zaman süni intellektin (Aİ) "qərar verməsinə" ehtiyac yoxdur. Sadə qayda əsaslı avtomatlaşdırma belə preventiv nəticə yarada bilər. Preventivlik, hüquq pozuntusunun qarşısının alınması proaktivliyin hüquqi məqsədini ifadə edir. Beləliklə, reaktivlik - baş vermiş pozuntuya cavab, proaktivlik - riskin əvvəlcədən müəyyən edilməsi, preventivlik - həmin riskin hüquqi vasitələrlə reallaşmasının qarşısının alınmasıdır. Bu fərqləndirmə cinayət-prosessual hüquq elmi üçün mühüm metodoloji əhəmiyyət daşıyır. Deməli, artıq yeni bir konsepsiyadan söhbət gedir. Preventiv prosessual təminatlar cinayət prosesində iştirak edən şəxslərin hüquq və azadlıqlarının pozulmasını yalnız pozuntudan sonra aradan qaldırmağa deyil, pozuntu ehtimalını əvvəlcədən müəyyən etməyə və onun baş verməsinin qarşısını almağa yönəlmiş hüquqi, təşkilati və texnoloji mexanizmlərin məcmusu kimi müəyyən edilə bilər. Bu konsepsiyanın mühüm xüsusiyyəti ondan ibarətdir ki, onun obyekti "şəxsin fərd olaraq təhlükəliliyi" deyil, prosessual fəaliyyətin hüquqa uyğunluğu çıxış edir. Bu fərq prinsipial əhəmiyyət kəsb edir, məsələn, sistem şəxsin "təhlükəli" olduğunu əvvəllər məhkum olunub, ağır cinayət törədib və s. kimi proqnozlaşdıraraq onun hüquqlarını avtomatik məhdudlaşdırmamalıdır. Lakin sistem belə bir prosessual vəziyyəti müəyyən edə bilər ki, şəxsin həbs müddətinin qanuni həddinin başa çatmasına az vaxt qalıb və ya müdafiə tərəfinin təqdim etdiyi vəsatət müəyyən müddət ərzində həll edilməyib. Bu halda texnologiya şəxsin hüquqi statusu barədə qərar vermir, prosessual risk barədə xəbərdarlıq edir. Bu, preventiv prosessual təminatların hüquqi baxımdan daha legitim modeli hesab edilməlidir.

Növbəti məsələ preventiv prosessual təminatların əsas elementlərinin fərqləndirilməsi ilə bağlıdır və belə müəyyən edilməsi məqsədəuyğundur. Prosessual riskin müəyyən edilməsi ilə bağlı birinci mərhələdə sistem konkret hüquqi riskin mövcudluğunu müəyyən etməlidir. Məsələn, prosessual müddətin başa çatması, məhkəmə nəzarətinin gecikməsi, məcburiyyət tədbirinin qanuni müddətinin bitməsi, müdafiəçinin müəyyən prosessual hərəkətdə iştirakının təmin edilməməsi və s. İkinci mərhələdə riskin hüquqi əhəmiyyəti müəyyən edilməlidir, yəni risk qiymətləndirilməlidir. Lakin risk qiymətləndirməsi yalnız texniki ehtimal göstəricisinə çevrilməməlidir. Məsələn, "bu şəxsin yüksək (60% və ya 80%) ehtimalla cinayət törədə biləcəyi müəyyən edilmişdir" tipli nəticə cinayət-prosessual qərarın müstəqil əsası ola bilməz. Bunun əvəzində isə "prosessual müddətin pozulması riski yüksəkdir" kimi nəticə konkret normativ müddətə və obyektiv məlumatlara əsaslanır. Bu iki yanaşma arasında hüquqi dövlət baxımından ciddi fərq vardır. Üçüncü mərhələdə artıq preventiv müdaxilə mövcud ola bilər, lakin risk müəyyən edildikdən sonra yalnız qanunun nəzərdə tutduğu tədbirlər görülə bilər. Məsələn, xəbərdarlıq, əlavə nəzarət, məhkəmə nəzarətinin zəruriliyi barədə avtomatik bildirişin göndərilməsi, vəsatətin məsul şəxsə yönləndirilməsi, müddətin başa çatması barədə avtomatik xəbərdarlıq edilməsi, məlumatın əlavə yoxlanılması və s. başqa bir sual yaranır, süni intellekt sistemi özü hüquqi məcburiyyət tətbiq edə bilərmi? Fikrimizcə, Aİ sisteminin özünün sərbəst şəkildə hüquqi məcburiyyət tədbiri tətbiq etməsi isə bu konsepsiyanın məntiqinə uyğun deyildir. Dördüncü mərhələ dinamik monitorinq

mərhələsi olmalıdır. Nəzərə almaq lazımdır ki, risk sabit kateqoriya deyildir. Məsələn, şahidə qarşı təhlükə ilkin mərhələdə aşağı, sonrakı mərhələdə isə yüksək ola bilər. Ona görə preventiv sistem riskin zaman ərzində dəyişməsini izləməli və tədbirin zərurili məsələsi diqqətdə saxlanmalıdır. Hüquqi təminat və məhkəmə nəzarəti beşinci mərhələdir. Preventiv mexanizmin ən mühüm komponenti məhz budur. Çünki risk əsaslı idarəetmə hüquqi nəzarətdən kənarda qalarsa, texnoloji sistem faktiki olaraq yeni və görünməz məcburetmə mexanizminə çevrilə bilər. Bu səbəbdən preventiv qərar və ya preventiv müdaxilənin insan hüquqlarına ciddi təsir göstərdiyi hallarda: qanuni əsas + əsaslandırma + insan nəzarəti + məhkəmə nəzarəti + effektiv şikayət imkanı birlikdə təmin edilməlidir. A. Aşvort və L. Zednerin əsərlərində cinayət prosesində preventiv müdaxilə və qətimkan tədbirlərinin, o cümlədən həbsin institutunun preventiv əsasları geniş araşdırılır [10, s. 51–73].

Cinayət hüququ sahəsində də yanaşdıqda bu konsepsiyanın beş əsas komponentini fərqləndirmək olar: 1. Riskin müəyyən edilməsi (cinayətkarlığın fərdi və sosial determinantlarının aşkar edilməsi. 2. Riskin qiymətləndirilməsi (şəxsin və ya sosial mühitin təhlükəlilik səviyyəsinin müəyyən edilməsi [11, s. 119–143]. 3.Preventiv müdaxilə (qanuni və proporsional tədbirlərin tətbiqi). 4. Dinamik nəzarət (riskin zamanla dəyişməsinin müşahidə edilməsi). 5. Hüquqi təminat və məhkəmə nəzarəti (preventiv tədbirlərin insan hüquqlarının əsassız məhdudlaşdırılmamasının təmin edilməsi).

Cinayət prosesi sahəsində müvafiq elementləri fərqləndirmək təminatlar mexanizmində müstəqil alt sistemin qurulmasına xidmət edəcəkdir. Cinayət prosesinin məqsədləri kontekstində gələcəyin cinayət prosesi ayrı-ayrı elektron xidmətlərin məcmusu deyil, vahid rəqəmsal hüquqi ekosistem şəklində fəaliyyət göstərməlidir. Bu ekosistem istintaq orqanlarını, prokurorluğu, məhkəmələri, vəkilliyi, ekspertiza müəssisələrini və cəza icra orqanlarını vahid təhlükəsiz informasiya platformasında birləşdirməlidir.

Belə ekosistem aşağıdakı elementləri özündə ehtiva etməlidir:

- elektron cinayət işi;
- vahid elektron sübut bazası;
- rəqəmsal prosessual sənəd dövriyyəsi;
- videokonfrans vasitəsilə prosessual fəaliyyət;
- elektron bildiriş sistemi;
- prosessual müddətlərin avtomatlaşdırılmış monitorinqi;
- süni intellekt (Aİ) əsaslı analitik dəstək sistemi.

Bu model cinayət mühakimə icraatının operativliyini artırmaqla yanaşı, onun şəffaflığını və hesabatlılığını da gücləndirəcəkdir. Demək olar ki, belə sistemin qurulması süi istifadə hallarına da preventiv nəzarəti təmin edəcəkdir. Aparılmış araşdırmalar göstərir ki, cinayət-prosessual hüquq sahəsində elmi tədqiqatların aparılması vacibdir, artıq bu istiqamətdə fəlsəfə doktoru və elmlər doktorluğu proqramları üzrə elmi tədqiqat işləri aparılır. Müasir çağırışlar aşağıdakı sahələr üzrə fəlsəfi, sosial, psixoloji və hüquqi kontekstdə tədqiqatlar aparılmasını zəruri edir. Bura aid edilməlidir:

- süni intellektin cinayət prosesində tətbiqinin hüquqi və etik problemləri;
- elektron sübutların nəzəri əsasları və hüquqi rejimi;
- rəqəmsal kriminalistika və sübutetmə;
- həssas şahid institutunun nəzəri modeli;
- təkrar viktimləşmənin qarşısının alınmasının prosessual mexanizmləri;
- preventiv prosessual təminatlar konsepsiyası;
- rəqəmsal məhkəmə nəzarəti;
- elektron cinayət işi institutunun hüquqi əsasları;

➢ rəqəmsal dövrdə müdafiə hüququnun transformasiyası.

Bu istiqamətlərin hər biri müstəqil fundamental elmi tədqiqatın predmetini təşkil edə bilər və milli cinayət-prosessual hüquq elminin inkişafına mühüm töhfə verə bilər. Yuxarıda göstərilənləri nəzərə alaraq hesab edirik ki, cinayət-prosessual qanunvericiliyin gələcək inkişafının üç əsas istiqamət üzrə həyata keçirilməsi məqsədəuyğundur. Birincisi, insan hüquqlarının və prosessual təminatların daha da gücləndirilməsi. İkincisi, rəqəmsallaşma və süni intellekt texnologiyalarının hüquqi dövlət prinsiplərinə uyğun şəkildə cinayət mühakimə icraatına inteqrasiyası. Üçüncü istiqamət kimi isə beynəlxalq hüquqi standartlar və müqayisəli hüquq təcrübəsi əsasında milli cinayət-prosessual qanunvericiliyin sistemli və davamlı təkmilləşdirilməsini fərqləndirmək olar. Yalnız bu üç istiqamətin qarşılıqlı və balanslaşdırılmış inkişafı Azərbaycan Respublikasında müasir, çevik, şəffaf, insan hüquqlarına əsaslanan və rəqəmsal çağırışlara cavab verən cinayət mühakimə icraatı modelinin formalaşdırılmasını təmin edə bilər. Cinayət-prosessual hüquq daim inkişaf edən hüquq sahələrindən biridir. Cəmiyyətin sosial münasibətlərində, informasiya texnologiyalarında, beynəlxalq hüquqda və insan hüquqlarının müdafiəsi mexanizmlərində baş verən dəyişikliklər cinayət-prosessual qanunvericiliyin də mütəmadi təkmilləşdirilməsini zəruri edir. Bununla belə, qanunvericiliyin inkişafı yalnız ayrı-ayrı normaların dəyişdirilməsi ilə məhdudlaşmamalıdır. Təcrübə göstərir ki, sistemsiz və epizodik dəyişikliklər normativ aktların daxili məntiqi ardıcıllığını zəiflədir, hüquq tətbiqetmə praktikasında ziddiyyətlər yaradır və hüquqi müəyyənlik prinsipinə mənfi təsir göstərir. Bu səbəbdən cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi vahid elmi konsepsiyaya əsaslanmalıdır. Belə konsepsiyada cinayət mühakimə icraatının məqsədi, prinsipləri, iştirakçıların hüquqi statusu, sübutetmə, məhkəmə nəzarəti, rəqəmsal texnologiyalar və insan hüquqlarının müdafiəsi arasında qarşılıqlı əlaqə vahid sistem kimi nəzərdən keçirilməlidir. Hesab edirik ki, müasir cinayət-prosessual qanunvericiliyin inkişafı ən azı beş fundamental metodoloji prinsip üzərində qurulmalıdır. İlk olaraq sistemlilik prinsipini qeyd edə bilərik. Cinayət-prosessual qanunvericiliyi bir-birindən təcrid olunmuş institutların məcmusu deyil, qarşılıqlı əlaqəli hüquqi mexanizmlər sistemidir. Buna görə də hər hansı bir institutun dəyişdirilməsi digər institutlara təsiri nəzərə alınmaqla həyata keçirilməlidir. Məsələn, elektron sübutların hüquqi rejiminin dəyişdirilməsi sübutetmə, ekspertiza, müdafiə hüququ və məhkəmə nəzarəti institutlarına da uyğun dəyişiklikləri tələb edir. İkinci prinsip insan hüquqlarının prioritetliyi prinsipidir. Cinayət prosesi dövlətin cəza siyasətinin həyata keçirilməsi vasitəsi olmaqla yanaşı, insan hüquqlarının müdafiəsi mexanizmidir. Buna görə də qanunvericiliyin təkmilləşdirilməsi zamanı bütün dəyişikliklər ilk növbədə şəxsin hüquq və azadlıqlarına təsiri baxımından qiymətləndirilməlidir. Əks təqdirdə, cinayət prosesinin struktur bütövlüyünün pozulması (destruktrizasiyası) baş verə bilər ki, bu da qarşıya qoyulmuş məqsədə nail olunmasına çalışıldığı halda, digər hüquqi və prosessual dəyərlərin zədələnməsi riskini əhəmiyyətli dərəcədə artırar. Üçüncü prinsip – texnoloji neytrallıq və innovasiyalara açıqlıq prinsipidir. Qanunvericilik konkret texnologiyalara bağlanmamalı, gələcəkdə meydana çıxacaq yeni rəqəmsal innovasiyaların da hüquqi sistemə inteqrasiyasına imkan verməlidir. Bu yanaşma normativ aktların daha dayanıqlı və uzunömürlü olmasına şərait yaradacaqdır. Dördüncü prinsip preventiv hüquqi tənzimləmə prinsipidir. Fikrimizcə, bu prinsip digərləri ilə eyni səviyyəli prinsip kimi izah edilməlidir. Ənənəvi model hüquq pozuntusuna reaksiya verməyə əsaslanırdısa, müasir

model isə hüquq pozuntularının baş verməsinin qarşısını almağa yönəlməlidir. Bu, cəmiyyətin təhlükəsizliyi və insan hüquqlarının təmin edilməsi kimi konstitusion vəzifənin yerinə yetirilməsi baxımından xüsusi əhəmiyyətlidir. Rəqəmsal monitorinq, avtomatlaşdırılmış nəzarət sistemləri və analitik alətlər bu məqsədə xidmət edə bilər. Beşinci, beynəlxalq standartlara uyğunluq və milli xüsusiyyətlərin vəhdəti prinsipidir. Cinayət-prosessual qanunvericiliyin inkişafı beynəlxalq standartlara uyğun aparılmalı, lakin milli hüquq sisteminin xüsusiyyətləri, hüquq tətbiqetmə təcrübəsi və hüquqi ənənələr də mütləq nəzərə alınmalıdır. Xarici modellərin mexaniki surətdə milli hüquqa köçürülməsi metodu deyil, onların milli hüquq sisteminə uyğunlaşdırılması metodu əsas götürülməlidir. Konseptual inkişafı institusional baxımdan təmin etmək üçün hesab edirik ki, cinayət-prosessual qanunvericiliyin davamlı inkişafı yalnız qanunvericilik təşəbbüsləri ilə məhdudlaşmamalıdır. Bu proses institusional əsaslara söykənməlidir və bu məqsədlə də aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- cinayət-prosessual qanunvericiliyin inkişafı üzrə daimi Elmi-Ekspert Şurasının yaradılması;
- müqayisəli hüquqi təcrübənin sistemli monitorinqinin təşkili;
- Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərinin müntəzəm təhlili;
- süni intellekt və rəqəmsal texnologiyalar üzrə hüquqi ekspertiza mexanizmlərinin yaradılması;
- hüquq tətbiqetmə təcrübəsinin statistik və analitik qiymətləndirilməsi.

Müasir cinayət-prosessual qanunvericiliyin inkişafı insan hüquqları – hüquqi dövlət – rəqəmsal transformasiya – səmərəli ədalət mühakiməsi arasında balansın təmin edilməsinə yönəlmiş vahid hüquqi model üzərində qurulmalıdır.

Bu modeldə hər bir yeni hüquqi institut və ya qanunvericilik dəyişikliyi aşağıdakı suallara cavab verməlidir:

- İnsan hüquqlarının müdafiəsini gücləndirirmi?
- Ədalətli məhkəmə araşdırmasına töhfə verirmi?
- Prosessual təminatları zəiflətmədən səmərəliliyi artırırmı?
- Rəqəmsal texnologiyaların təhlükəsiz və şəffaf tətbiqini təmin edirmi?
- Milli hüquq sistemi ilə beynəlxalq standartlar arasında tarazlığı qoruyurmu?

Yalnız bu meyarlar əsasında həyata keçirilən islahatlar uzunmüddətli perspektivdə dayanıqlı və effektiv cinayət-prosessual qanunvericiliyi modelinin formalaşmasına imkan verə bilər. Hüququn inkişaf tarixi göstərir ki, hər bir tarixi mərhələ cəmiyyətin sosial-iqtisadi, siyasi və texnoloji inkişaf səviyyəsinə uyğun olaraq yeni hüquqi paradiqmalar formalaşdırmışdır. Roma hüququnun klassik institutlarından başlayaraq müasir konstitusional hüquq dövlətinə qədər hüququn təkamülü insan hüquqlarının müdafiəsi və hüquqi təminatların genişlənməsi istiqamətində inkişaf etmişdir. XXI əsrdə isə hüququn inkişafına təsir göstərən əsas amil rəqəmsal transformasiya və süni intellekt texnologiyalarıdır. Bu texnologiyalar yalnız yeni texniki vasitələr deyil, hüquqi münasibətlərin mahiyyətini dəyişdirən amillərdir. Buna görə də cinayət-prosessual qanunvericiliyi yalnız mövcud problemlərə reaksiya verməməli, həm də gələcəkdə yaranacaq hüquqi münasibətləri qabaqcadan proqnozlaşdırmalıdır. Hesab edirik ki, müasir cinayət-prosessual hüquq *reaktiv hüquqi tənzimləmə* modelindən *proaktiv hüquqi tənzimləmə* modelinə keçməlidir. Reaktiv tənzimləmə artıq baş vermiş hüquq pozuntusuna cavab verilməsidir. Proaktiv tənzimləmə isə risklərin əvvəlcədən müəyyən edilməsinə və idarə olunmasına yönəlir. Başqa sözlə, qa-

nunvericiliyin məqsədi yalnız baş vermiş prosessual pozuntuların aradan qaldırılması deyil, həm də onların yaranmasının qarşısının alınması olmalıdır. Müasir cinayət prosesi gələcəyə fokuslanmış cinayət prosesidir. Bu zaman klassik mexanizmlərdən imtina edilməməli, onların yeni çağırışlara cavab verən yalnız hüquqi normaların tətbiqindən ibarət olmayan, rəqəmsal texnologiyalar, süni intellekt, avtomatlaşdırılmış nəzarət sistemləri və analitik idarəetmə vasitələri ilə dəstəklənən vahid hüquqi idarəetmə sisteminə çevrilməlidir. Başqa sözlə, smart (ağıllı) cinayət prosesi dövrü zamanın tələbidir.

Cinayət prosesi özündə - tam elektron cinayət işi, vahid rəqəmsal sübut sistemi, prosessual müddətlərə avtomatik nəzarət, süni intellekt əsaslı analitik dəstək, rəqəmsal məhkəmə nəzarəti, təhlükə və risklərin avtomatik qiymətləndirilməsi, elektron prosessual kommunikasiya, videokonfrans vasitəsilə prosessual fəaliyyət, proses iştirakçılarının hüquqları və qanuni mənafelərinin rəqəmsal təminatı kimi elementləri birləşdirməlidir. Belə modelin məqsədi insan faktorunu əvəz etmək deyil, onun fəaliyyətini daha səmərəli və şəffaf etməyi nəzərdə tutur.

Cinayət-prosessual qanunvericiliyin gələcək inkişafı yalnız hüquq normalarının dəyişdirilməsi ilə məhdudlaşmamalıdır. Müasir dövrdə prosessual fəaliyyətin idarə edilməsinin də yeni modeli formalaşdırılmalıdır. Bu model prosessual müddətlərin avtomatik hesablanması, gecikmələrin dərhal aşkarlanması, prosessual qərarların icra vəziyyətinin monitorinqi, məhkəmə və istintaq orqanlarının iş yükünün analizi, statistik hesabatların avtomatik hazırlanması, hüquq pozuntularının risk xəritəsinin yaradılması və s. funksiyaları yerinə yetirə bilər. Beləliklə, nəzarət mexanizmi təsadüfi yoxlamalara deyil, davamlı rəqəmsal monitorinqə əsaslanacaqdır ki, bu da cinayət mühakimə icraatının səmərəlilik səviyyəsində inqilabi dəyişiklik yaradacaq, legitim hakimiyyət və ictimai məmnunluq prinsipinin realizəsində əvəzsiz mexanizm quracaqdır.

Təcrübədə problem yaradan digər məsələlərdən biri süni intellektin tətbiqi sərhədlərinin müəyyən edilməsi ilə bağlıdır. Fikrimizcə, bu sferada ədalətli effektiv yanaşmanı yalnız mükəmməl hüquqi tənzimləmə ilə təmin etmək olar. AR CPM-də «Süni intellekt texnologiyalarının tətbiqinin ümumi prinsipləri» adlı ayrıca hüquqi institutun təsbit edilməsi məqsədəuyğundur. Həmin institut insan nəzarətinin üstünlüyü, qanunilik və hüquqi müəyyənlik, alqoritmik şəffaflıq və izah olunma, diskriminasiyanın yolverilməzliyi, şəxsi məlumatların və rəqəmsal məxfiliyin qorunması, kibertəhlükəsizlik, məhkəmə nəzarətinin məcburiliyi - kimi prinsiplərə əsaslanmalıdır. Bu prinsiplər süni intellektin hüquqi dövlət prinsiplərinə uyğun tətbiqinin fundamental əsaslarını təşkil edə bilər.

Müasir dövrdə bir çox inkişaf etmiş dövlətlər artıq öz qanunvericiliyində süni intellektin hüquqi müstəvidə tənzimlənməsi məqsədilə bir sıra aktlar qəbul etsələr də, sözügedən mövzu üzrə müzakirələr hələ də davam etməkdədir. Fərqli konseptual yanaşmalar arasında hüquqi və texniki çərçivəyə uyğun tərifin tapılması bu sahənin inkişafı üçün vacib addımdır [9, s.167].

Universal gücə malik süni intellektli texnologiyaların yaradılması və tədricən bu texnologiyaların müxtəlif sahələrdə istifadə edilməsi, şəxsiyyətin, cəmiyyətin və dövlətin əlaqələrinə daxil olub bilavasitə insan müdaxiləsi olmadan müxtəlif vəzifələri yerinə yetirməsi və tənzimləməsi, artıq müasir günümüzdə geniş müzakirələrə səbəb olub, o cümlədən cinayət hüququ elmi sahəsində də müəlliflərin diqqət məsrkəzində duran məsələlərdəndir [6, s.16].

Süni intellekt texnologiyalarının tətbiqi yeni hüquqi məsuliyyət məsələlərini də gündəmə gətirir. Bu zaman ilk olaraq, süni intellekt

tərəfindən hazırlanmış analitik nəticələrin, tövsiyələrin və ya avtomatlaşdırılmış qərar layihələrinin hüquqi statusu qanunvericilikdə dəqiq müəyyən edilməlidir. Hesab edirik ki, süni intellektin cinayət işi üzrə hüquqi qərar qəbul etmək, şəxsin təqsirliliyini müəyyən etmək, sübutları müstəqil qiymətləndirə bilmək, hakim, müstəntiq və ya prokurorun səlahiyyətlərini əvəz edə bilmək kimi imkanları hüquqi baxımdan qadağan edilməlidir. O, yalnız analitik dəstək və prosessual monitorinq vasitəsi kimi çıxış etməli, eləcə də süni intellekt prosessual fəaliyyətin təşkili, məlumatların emalı, risklərin təhlili və qərar qəbul edən subyektlərə analitik dəstəyin göstərilməsi sahəsində geniş tətbiq olunmalıdır. Elmi nəzəri təhlil, eləcə də istintaq və məhkəmə təcrübəsinin öyrənilməsi belə nəticəyə gəlməyə imkan verir ki, müasir cinayət-prosessual qanunvericiliyin inkişafı klassik prosessual institutların qorunub saxlanılması ilə yanaşı, onların rəqəmsal texnologiyalar və beynəlxalq hüquqi standartlar əsasında yenidən formalaşdırılmasını tələb edir.

Təhlükəsizlik nöqteyi-nəzərdən süni intellekt dəstəkli texnoloji innovasiyalar sinfinə daxil olan biometrik texnologiyalar bir sıra dövlətlərin ayrı-ayrı hüquq-mühafizə orqanlarında, gömrük və sərhəd xidmətlərində, xüsusi xidmət orqanlarında tətbiq olunmaqdadır. Bu texnologiya sayəsində sistem tərəfindən şəxsin üz görüntüsü əldə edilərək ayrı-ayrı bədən üzvləri üzrə (gözlər, burun, ağız, dodaq, çənə və s.) əvvəlcə eyniləşdirmə aparılır, daha sonra sistem vahid məlumat bazası ilə əlaqə yaradaraq arxiv üzrə eyniləşdirmə aparır. Şəxsin üzü 2D və 3D sensorlarla rəqəmsallaşdırılaraq məlumatlar kodlarla vahid məlumat bazasına göndərilir. Biometrik texnologiyalar təhlükəsizliyin təmin olunması baxımından olduqca yüksək nəticələrin əldə olunmasına kömək edir. Bu texnoloji resursun əsas üstünlüyü isə cinayətlərin operativ şəkildə tədqiqi və qarşısının alınmasıdır [7, s.17].

Süni intellekt sahəsində hüquqi tənzimetmənin əsas funksiyası və təyinatı belə sistemlərin təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi və risklərin mümkün qədər azaldılması mexanizmlərinin təsbit və tətbiq edilməsindən ibarət olmalıdır [8, s.103].

Nəticə. Tədqiqatın nəticəsi olaraq qeyd edirik ki, gələcəyin cinayət mühakimə icraatı insan hüquqlarına əsaslanan, rəqəmsal texnologiyalarla dəstəklənən və beynəlxalq standartlara uyğun çevik hüquqi sistem olmalıdır. Bu məqsədlə AR CPM-də «Süni intellekt texnologiyalarının tətbiqinin ümumi prinsipləri» adlı yeni institutun təsbit edilməsi təklif olunur.

Cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi ayrı-ayrı hüquqi institutların islahatı deyil, insan hüquqlarının üstünlüyünə, rəqəmsal transformasiyaya, elmi-texniki tərəqqiyə və hüquqi dövlət prinsiplərinə əsaslanan vahid cinayət-prosessual inkişaf doktrinasının formalaşdırılması prosesidir. Məhz bu doktrina gələcək normayaratma fəaliyyətinin metodoloji əsasını təşkil etməli və Azərbaycan Respublikasında ədalətli, şəffaf, səmərəli və innovativ cinayət mühakimə icraatının inkişafına xidmət etməlidir.

Azərbaycan cinayət-prosessual hüquq elminin gələcək inkişafı rəqəmsal cinayət prosesi nəzəriyyəsi, elektron sübutlar doktrinası, süni intellekt və cinayət prosesi, rəqəmsal məhkəmə nəzarəti, elektron ekspertiza və rəqəmsal kriminalistika, prosessual risklərin idarə edilməsi, rəqəmsal hüquqi etikaya dair tədqiqatlar kimi prioritet istiqamətlər üzrə təşkil edilməlidir. Bu istiqamətlər yalnız nəzəri əhəmiyyət daşımır, həm də gələcək qanunvericilik islahatlarının elmi əsaslarının formalaşdırılmasına xidmət edəcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası. https://e-qanun.az/framework/897.
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. https://e-qanun.az/framework/46950.
3. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası". https://e-qanun.az/framework/59218
4. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası". https://e-qanun.az/framework/55045
5. Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 608 nömrəli Fərmanı. https://e-qanun.az/framework/61405.
6. Ş.T.Səmədova. Süni intellekt və cinayət hüququ: məsuliyyət problemləri. Bakı Universitetinin Xəbərləri, №3, sosial-siyasi elmlər seriyası 2025, hüquq. Səh.5-20.
7. Gülnaz Rzayeva, Aytəkin İbrahimova. Süni intellekt, insan hüquqları və fərdi məlumatların təhlükəsizliyi. Dərs vəsaiti. Bakı: "Nurlar" nəşriyyatı, 2021, 200 s.
8. Aslanov Z.N. "Elmi-texniki tərəqqi, süni intellekt və hüquq". Bakı: "Elm və təhsil" nəşriyyatı, 2021, 164 s.
9. Kamran Xəlilov. Süni intellektin hüquqi statusu və vahid yanaşmanın tətbiqi ilə bağlı çətinliklər // Azərbaycan Vəkili, 2025-№2 (26), s. 167-175.
10. Ashworth, A.; Zedner, L. "Prevention, Policing, and Criminal Procedure", Preventive Justice, 2014, pp. 51–73.
11. Ashworth, A.; Zedner, L. "Risk Assessment and the Preventive Role of the Criminal Court", Preventive Justice, 2014, pp. 119–143.

Гафаров Мидхад Сейидамад оглу,
доктор юридических наук, профессор кафедры уголовно-процессуального права юридического факультета Бакинского государственного университета
Эйвазов Хикмат Гисмат оглу,
доктор философии по праву, доцент Академии Службы государственной безопасности Азербайджанской Республики имени Гейдара Алиева
Гафарли Миртарлан Мидхад оглу,
Бакинский суд по тяжким преступлениям, помощник судьи, магистр

НОВЫЙ ЭТАП В РАЗВИТИИ СОВРЕМЕННОГО УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОГО ПРАВА

РЕЗЮМЕ

В статье всесторонне рассматриваются направления развития современного уголовно-процессуального права в контексте защиты прав человека, цифровой трансформации, применения технологий искусственного интеллекта и концепции превентивных процессуальных гарантий. Основная цель исследования – определение теоретических и нормативных основ трансформации уголовно-процессуального права от традиционной реактивной модели правового регулирования к проактивной и превентивной модели правового управления.

В статье различаются понятия «реактивного», «проактивного», «превентивного» и «рискоориентированного» правового регулирования. Особо подчеркивается, что превентивные процессуальные гарантии не означают ограничение свободы лица, не совершившего преступления, на основании абстрактной опасности или «предсказания преступления». Их основной предмет – своевременное выявление и предотвращение существующих процессуальных рисков – нарушения сроков, продолжения незаконных принудительных мер, ослабления права на защи-

ту, утраты целостности доказательств, процессуальных задержек и других нарушений – посредством правовых механизмов.

В статье различаются понятия «реактивного», «проактивного», «превентивного» и «рискоориентированного» правового регулирования. В исследовании обосновывается позиция искусственного интеллекта как технологического инструмента, предоставляющего информацию и аналитическую поддержку лицам, принимающим решения, а не как субъекта юридического принятия решений в уголовном процессе. В качестве основных правовых условий применения ИИ выдвигаются человеческий контроль, законность, правовая определенность, прозрачность, анонимность, недискриминация, защита персональных данных, кибербезопасность, аудит и судебный контроль.

Midhad Gafarov Seyidahmad,
Doctor of Legal Sciences, Professor,
Department of "Criminal Process",
Faculty of Law, Baku State University
Hikmat Eyvazov Gismat,
PhD in Law, Associate Professor, Heydar Aliyev Academy of
the State Security Service of the Republic of Azerbaijan
Mirtarlan Gafarli Midhad,
Assistant Judge, Master, Baku Court of Grave Crimes

A NEW STAGE IN THE DEVELOPMENT OF MODERN CRIMINAL PROCEDURE LAW

SUMMARY

The article comprehensively studies the development directions of modern criminal procedural law in the context of human rights protection, digital transformation, application of artificial intelligence technologies and the concept of preventive procedural guarantees. The main purpose of the study is to determine the theoretical and normative foundations of the transformation of criminal procedural law from the traditional reactive legal regulation model to the proactive and preventive legal management model.

The article distinguishes the concepts of "reactive", "proactive", "preventive" and "risk-based" legal regulation. It is especially emphasized that preventive procedural guarantees do not mean the restriction of a person who has not committed a crime on the basis of abstract dangerousness or "prediction of a crime". Its main subject is the timely identification and prevention of existing procedural risks - violation of deadlines, continuation of illegal coercive measures, weakening of the right to defense, loss of integrity of evidence, procedural delays and other violations - through legal mechanisms.

The study justifies the position of artificial intelligence as a technological tool that informs and provides analytical support to human decision-makers rather than as a subject of legal decision-making in criminal proceedings. Human control, legality, legal certainty, transparency, anonymity, non-discrimination, protection of personal data, cybersecurity, audit and judicial control are put forward as the main legal conditions for the application of AI.

Redaksiyaya daxilolma tarixi: 01.08.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 10.08. 2026
Çapa qəbul olunma tarixi: 2**4.08.2026**